# Qaradağ rayonu Azərbaycanın iqtisadi mərkəzinə çevrilir

***Azərbaycanın uğurlu sosial-iqtasadi inkişaf modeli öz bəhrələrini verməkdədir. Hər il ölkəmizin müxtəlif sahələrinə, xarici investisiya həcmi artırılır. Xüsusilə də, qeyri-neft sektoruna qoyulan investisiyaların həcmi artmaqdadır. Bunun da səbəbi söz yox ki, ölkəmizdə münbit biznes mühitinin yaradılmasıdır. İnvestisiya cəlbediciliyinə görə xarici iş adamlarının maraq göstərdiyi Azərbaycanda ixracın təşviqi sistemi yaradılır, dünya bazarına çıxarılan məhsulların keyfiyyəti beynəlxalq standartlara uyğunlaşdırılır. Bu, onu göstərir ki, son illər ərzində ölkə iqtisadiyyatının güclənməsinə imkan yaradan sahələrə böyük həcmli investisiyalar qoyulub, dövlət dəstəyi gücləndirilib. "Azərbaycan olduqca münbit sərmayə mühitini yaradıb" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, müstəqillik tariximizdə iqtisadiyyata 200 milyard dollardan artıq sərmayə qoyulub. Bu, ölkəmizə inamdan irəli gəlir.***

*Prezident İlham Əliyev: "Mən çox şadam ki, son dövrlərdə Qaradağ rayonunda belə gözəl işlər görülmüşdür, özü də, qısa müddət ərzində"*

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi hesabına davamlı və sabit iqtisadi inkişafa nail olunması, ÜDM-in formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması, əhalinin etibarlı sosial müdafiəsinin təşkili və maddi-mənəvi, rifah halının durmadan yaxşılaşdırılması, orta təbəqənin formalaşdırılması və cəmiyyət həyatında rolunun artırılması bir məqsədə yönəldilir ki, insan amilinə diqqətin əsasını təşkil edən göstəricilər daha böyük rəqəmlərlə ifadə olunsun. Söz yox ki, əhalinin yaşayış durumunun yaxşılaşması ilə, rayon və şəhərlərin, kənd və qəsəbələrin simasının cidd şəkildə inkişafa doğru dəyişməsinə təkan verir. Bu yüksəlişi Bakının Qaradağ rayonunun timsalında da aydın görmək mümkündür. Azərbaycanın qazandığı möhtəşəm nailiyyətlərdə ölkəmizin ən iri sənaye mərkəzlərindən biri olan Qaradağ rayonu mühüm rola malikdir. Bakının cənub-şərqində, Xəzər dənizi sahillərində yerləşən Qaradağ rayonu həm də gil və neft-qaz yataqlarına malikdir. Məlumat üçün qeyd edək ki, Qaradağ rayonu inzibati ərazi vahidi kimi Puta-Şubanı mədəninin kəşfi ilə əlaqədar yaradılmışdır. 1923-cü il mayın 7-də Puta qəsəbəsindəki klubda ilk partiya konfransı keçirilmiş və rayonun əsası qoyulmuşdur. Rayon 1937-ci ilədək Mikoyan rayonu, 1956-cı ilədək Molotov rayonu, 1956-63-cü illərdə Qaradağ rayonu, 1963-66-cı illərdə Əzizbəyov rayonu, 1966-cı ildən isə yenidən Qaradağ rayonu adlandırılmışdır. Rayonun adı Zaqafqaziyada ilk dəmiryol stansiyalarından olan Qaradağ stansiyasının adı ilə bağlıdır. Hazırda Qaradağ rayonunun inzibati ərazi vahidliyinə 11 qəsəbə daxildir. Qaradağ rayonunun mərkəzi şəhər tipli Lökbatan qəsəbəsidir. Lökbatan adının tarixi hazırkı Xocəsən və Sənqəçal qəsəbələri arasında olan karvan yolu ilə bağlıdır. Vaxtilə qəsəbənin ərazisinndə dəvə karvanlarının dayanacaqları olmuş və dəvələr bataqlıqlara batdıqlarından, ərazi Lökbatan (dəvə batan) adlandırılmışdır. Hazırda Qaradağ rayonunun ərazisi 1080 km, əhalisi isə 109371 nəfərdir. Qaradağın yaşlı nəsli ilə söhbətdə məlum oldu ki, rayonun adının mənası gil və əhəng daşı yüksəkliklərinin yaratdığı ümumi qaramtıl mənzərə deməkdir. İnsanlar həm də rayonda yeni iş yerlərinin yaradılmasından, sosial-iqtisadi durumlarının yaxşı olmasından razılıq edirlər. Birmənalı tərzdə demək olar ki, rayonda işsizlik problemi yoxdur. Bunun da başlıca səbəbini rayonun Azərbaycanın ən iri neft-qaz sənaye müəssisələrinin yerləşdiyi məkanlardan biri olmasıdır. Bu baxımdan, onu qeyd etmək olar ki, Qaradağ rayonu xalqımızın xilaskarı, dövlətimizin qurucusu və memarı Ümummilli Liderimiz Heydər Əliyevin neft strategiyasının reallaşmasında müstəsna rolu var.

## Qaradağ iri neft-qaz sənaye müəssisələrinin yerləşdiyi məkanlardandır

Hələ ötən əsrin 80-ci illərində, məhz Ulu Öndərimiz Heydər Əliyevin uzaqgörənliyi sayəsində Qaradağ rayonunda regionda analoqu olmayan və bu gün haqlı olaraq, Ulu Öndərimizin adını daşıyan Dərin Dəniz Özülləri Zavodunun istismara verilməsi, digər neft sənayesi müəssisələrinin inşası bu gün milli neft strategiyasını uğurla reallaşdırmağa imkan verir. Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi olan ölkə Prezidenti İlham Əliyevin rayonun sosial-iqtisadi inkişafında müstəsna xidmətləri var. Prezident İlham Əliyev 1995-ci ildə Qaradağ rayonunda millət vəkili kimi fəaliyyəti dövründə çox böyük işlər görüb. Azərbaycanda həmin illərdə, ilk dəfə olaraq, sosial-inkişaf proqramı da Cənab İlham Əliyevin təşəbbüsü və iştirakı ilə, məhz Qaradağ rayonunda qəbul edilib və "Qaradağın sosial-iqtisadi inkişafına yardım fondu" çərçivəsində rayonda böyük həcmdə layihələr həyata keçirilib, məktəb və uşaq bağçaları əsaslı təmir olunub, yollar çəkilb və qəsəbələr abadlaşdırılıb.

Prezident İlham Əliyev Qaradağ rayon ictimaiyyəti ilə görüşündə bu rayonla sıx bağlılığı ilə əlaqədar fikirlərini bölüşüb. Bildirib ki, Mən çox şadam ki, son dövrlərdə Qaradağ rayonunda belə gözəl işlər görülmüşdür, özü də, qısa müddət ərzində: "Bilirsiniz ki, Qaradağ rayonuna Mənim həmişə xüsusi münasibətim, xüsusi diqqətim olub. Mənim demək olar ki, siyasi fəaliyyətim bu rayonda başlayıb. Birinci dəfə 1995-ci ildə qaradağlılar Mənə etimad göstərmiş, Milli Məclisə deputat seçmişlər. Mən də çalışırdım ki, bu böyük etimadı doğruldum. Dəfələrlə Qaradağ rayonuna gəlmişəm, vəziyyətlə tanış olmuşam. Bu gün ölkə Prezidenti kimi çalışıram ki, Bakının ən böyük rayonu olan Qaradağ rayonunun inkişafı üçün öz köməyimi göstərim. Rayonun iqtisadi və sənaye inkişafı sürətli gedir. Qaradağ rayonu Azərbaycanın güclü sənaye mərkəzinə çevrilir. Burada yaradılan müəssisələr və tikilməkdə olan zavodlar rayonun iqtisadi gücünü artıracaq, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır".




## Qaradağ rayonu yeni uğurlara imza atır

Qaradağ rayonunda əhalinin məşğulluğunun artırılması, həyat şəraitinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, məktəb tikintisi və digər sahələrdə genişmiqyaslı işlər görülmüşdür. Görülən məqsədyönlü müvafiq işlər nəticəsində, bu gün rayonda 7 xəstəxana, xəstəxana tabeliyində olan 6 poliklinika, 2 müstəqil poliklinika, 1 stomatoloji poliklinika, 1 özəl klinika, 1 uşaq sanatoriyası, 1 doğum evi, 2 təcili və təxirəsalinmaz tibbi yardim stansiyasi, eyni zamanda, Respublika Güzəm Xəstəxanası və Ələt Dəmiryol Xəstəxanası fəaliyyət göstərir. Müvafiq Dövlət Proqramına əsasən, bu ilin may ayında Müşfiqabadda Mədəniyyət Evi əsaslı təmirdən sonra açılıb. Eyni zamanda, Lökbatandakı 9 saylı Musiqi Məktəbi üçün yeni binanın inşa olunub, Qızıldaş Mədəniyyət Mərkəzinin tikintisi isə davam etdirilir. Bütövlükdə, rayonda mədəniyyət və istirahət mərkəzlərinin sayının artırılmasına xüsusi diqqət ayrılır. Hazırda rayonda 8 mədəniyyət evi, 1 muzey, 10 kitabxana, 10 mədəniyyət və istirahət parkı, 1 dövlət qoruğu fəaliyyət göstərir. Eyni zamanda, Qaradağ rayonu ərazisində 15 mədəniyyət və tarixi abidə var ki, onun da 4-ü respublika, 1-i isə dünya əhəmiyyətlidir. Əhalinin sağlamlığının qorunması məqsədilə, ölkə başçısının tapşırığına uyğun olaraq, 2018-ci ilin ilk ayından başlayaraq, Qaradağ rayonunda 18 yaşından yuxarı əhalinin tibbi müayinədən keçirilməsi tədbirlərinə başlanılmışdır. Bu tədbirlər may ayının sonuna qədər davam etdiriləcək. Qaradağ Rayon İcra Hakimiyyətinin 2017-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunlarına və Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Nazirlər Kabinetinin 10 yanvar 2018-ci il tarixli iclasındakı nitqindən irəli gələn vəzifələrə həsr olunan hesabat yığıncağında Qaradağ Rayon İcra Hakimiyyəti başçısı Süleyman Mikayılov bildirmişdir ki, ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illər Qaradağ rayonunda bir çox mühüm obyektlərin inşası uğurla başa çatdırılmışdır. M.Süleymanov, bunun bariz nümunəsi kimi, ötən il ərzində ölkə başçısı Cənab İlham Əliyevin Qaradağ rayonuna 3 dəfə səfər etməsini misal olaraq göstərmişdir. Bildirmişdir ki, bu səfərlər çərçivəsində Prezident İlham Əliyev 2017-ci ilin may ayının 18-də Heydər Əliyev adına Yarımdalma Qazma Qurğusunun açılış mərasimində, sentyabr ayının 6-da Gəmiqayırma Zavodunda "Şahdəniz-2" layihəsi çərçivəsində inşa edilən "Xankəndi" Sualtı Tikinti Gəmisinin təqdimat mərasimində və oktyabr ayının 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilmiş Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimində iştirak etmişdir: "Prezident Cənab İlham Əliyevin Qaradağ rayonuna səfərləri hesabat dövrünün ən mühüm və yaddaqalan hadisələrindən olmuşdur.

Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir.

Bu istiqamətdə atılan mühüm addımlardan biri də martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın Sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsidir.

Həyata keçirilmiş tədbirlərin davamı olaraq, cari ilin may ayının 30-da Qaradağ rayonunun Lökbatan qəsəbəsində qaçqın və məcburi köçkün ailələr üçün 1026 mənzilli yeni yaşayış kompleksinin təməlqoyma mərasimi keçirilmiş və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva mərasimdə iştirak etmişdir".

Birmənalı tərzdə demək olar ki, Qaradağ rayonunda əldə olunan sosial-iqtisadi inkişaf, demokratik dəyişikliklər və digər uğurlar, nailiyyətlər bundan sonra da davam etdiriləcək. Çünki Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin çox böyük əzmlə və müdrikliklə apardığı siyasət güclü, qüdrətli Azərbaycan qurmaq, firavan, xoşbəxt xalq rifahına nail olmaq siyasətinə hesablanıb.

***Qismət İsmayılov***
***İqtisadiyyat şöbəsinin müdiri***

***Yazı Qaradağ Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçün***